# Həftəlik
# *Bülleten*



**101**
**25 İyul 2025**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Şəmkirdə yolların əsaslı təmirinə 2 milyon manat ayrılıb – SƏRƏNCAM.**

Prezident İlham Əliyev Şəmkir rayonunun Dəllər Cəyir–Dəllər Daşbulaq və Qədimqala–Miskinli–Keçili–Xuluf avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən iyirmi min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Dəllər Cəyir–Dəllər Daşbulaq və Qədimqala–Miskinli–Keçili–Xuluf avtomobil yollarının əsaslı təmiri məqsədilə ilkin olaraq 2 milyon manat Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etməli, İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yollarının əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutmalı, Nazirlər Kabineti isə bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.



**Azərbaycanda 100 minə yaxın daşınmaz əmlaka "amnistiya" veriləcək.**

Azərbaycanda əmlak hüquqlarının rəsmiləşdirilməsi ilə bağlı imzalanan yeni fərman 100 minə yaxın vətəndaşa sənədsiz evlərini qeydiyyatdan keçirmək imkanı yaradacaq. Bunu jurnalistlərə açıqlamasında Əmlak Məsələləri Dövlət Xidməti yanında Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Xidmətinin idarə heyətinin sədri Nigar Alimova deyib. O bildirib ki, ölkə başçısı tərəfindən 16 iyul tarixində imzalanan "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı"nda dəyişikliklər edilməsi barədə" Fərman 2015-ci ildə qəbul edilmiş 439 nömrəli sənədə əlavə və dəyişiklikləri nəzərdə tutur: "Bu sənəd əslində "amnistiya" xarakteri daşıyır. Əvvəllər hüquq müəyyənedici sənəd hesab edilməyən bəzi arayış və sənədlərə bu status verilməklə, vətəndaşlara əmlaklarını rəsmiləşdirmək imkanı yaradılır. Proqnozlara əsasən, bu dəyişikliklər 100 minə yaxın ailəyə hüquqi qeydiyyatla bağlı imkanlar təqdim edəcək". "Bu fərman ölkədə sənədsiz evlərlə bağlı məsələnin həllinə mühüm töhfə verir və onilliklərdir mübahisəli vəziyyətdə qalan əmlakların statusunu hüquqi müstəviyə çıxarır", - deyə N.Alimova əlavə edib.



**Azad olunmuş ərazilərdə hərrac yolu ilə istifadəyə verilən yataqların sayı açıqlandı.**

Azad olunmuş ərazilərdə hərrac yolu ilə istifadəyə verilən yataqların sayı açıqlanıb. Bu barədə Əmlak Məsələləri üzrə Dövlət Xidmətindən məlumat verilib. "Yer təkinin istifadəyə verilməsi üzrə hərracların (auksion və müsabiqələrin) keçirilməsi Qaydalarına əsasən, Hərracların Təşkili Mərkəzi tərəfindən azad olunmuş ərazilərdə indiyə qədər 6 faydalı qazıntı yatağı hərrac yolu ilə verilib.

15 dekabr 2023-cü il tarixində Füzuli rayonunda yerləşən "Dövlətyarlı" əhəngdaşı yatağı, 12 iyun 2024-cü il tarixində Qubadlı rayonunda yerləşən "Hacılı" və Laçın rayonunda yerləşən "Əhmədli" mişar daşı yataqları, 12 sentyabr 2024-cü il tarixində Xocalı rayonunda yerləşən "Yemişcan" üzlük daşı yatağı, 19 dekabr 2024-cü il tarixində Xocalı rayonunda yerləşən "Ağçay" üzlük daşı yatağı və 19 fevral 2025-ci il tarixində Xocalı rayonunda yerləşən "Xocalı" gil yatağı hərrac yolu ilə istifadəyə verilib", - məlumatda bildirilib.



**Xocalıda abadlıq işləri ilə bağlı növbəti layihənin icrasına başlanılır.**

Azərbaycanın azad edilmiş ərazilərində bərpa-quruculuq, abadlıq işləri mərhələli şəkildə davam etdirilməkdədir.

Bu işlərin davamı kimi Xocalı şəhərinin ikinci mərhələdə sahədaxili mühəndis kommunikasiyalarının, yol-küçə şəbəkəsinin, bulvar ərazisinin abadlıq-yaşıllaşdırma işləri aparılacaq.

Məlumata əsasən, həmçinin, şəhərdə 37 fərdi yaşayış evinin təmir-bərpa işlərinin layihələndirilməsi işləri də həyata keçiriləcək.

Belə ki, Məcburi Köçkünlərin Sosial İnkişafı Fondu tərəfindən artıq bununla bağlı müvafiq işlərə start verib.

Fond sözügedən işlərin icrasını Bakı Dövlət Layihə İnstitutuna həvalə edib və müqavilə bağlayıb.

Müqaviləyə əsasən, instituta 650 min manat ödənilib.

Qeyd olunan işlərin gələn ilin may ayınadək yekunlaşdırılması nəzərdə tutulur.



**Əlvan metallardan nümunə götürülməsi üzrə yeni dövlət standartı qəbul edilib.**

Azərbaycan Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) tərəfindən AZS ГОСТ 24231:2025 "Əlvan metallar və ərintilər. Kimyəvi analiz üçün nümunələrin götürülməsinə və hazırlanmasına dair ümumi tələblər" adlı yeni dövlət standartı qəbul edilib. AZSTAND-dan FED.az-a bildirilib ki, sözügedən standartın qəbul edilməsində məqsəd nümunələrin analitik tərkibinin dəqiq və təkrarlanabilən təyini üçün vahid metodoloji yanaşmanı təmin etməkdir. Yeni dövlət standartının tətbiqi əlvan metallardan və onların ərintilərindən kimyəvi analiz üçün nümunələrin götürülməsi və hazırlanması prosesinin standartlaşdırılmasına xidmət edəcək. Bundan əlavə, nümunə götürmə mərhələsi nəticələrin keyfiyyətinə birbaşa təsir göstərdiyindən istehsalat proseslərində, laboratoriyalarda və keyfiyyətə nəzarət sistemlərində tətbiq olunan analiz metodlarının dəqiqliyi və etibarlılığı əhəmiyyətli dərəcədə artacaq. Yeni dövlət standartı "Qiymətli metallar və qiymətli daşlar" standartlaşdırma üzrə Texniki Komitədə (AZSTAND/TK 36) konsensus əsasında qəbul edilib və AZSTAND tərəfindən Standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edilib.



# TƏDBİRLƏR

**Azərbaycan Standartlaşdırma İnstitutunun səlahiyyətli nümayəndələri və ATMİA üzvləri arasında dəyirmi masa tədbiri təşkil olunub.**

23.07.2025-ci il tarixində Azərbaycan Standartlaşdırma İnstitutunun səlahiyyətli nümayəndələri və ATMİA üzvləri arasında dəyirmi masa tədbiri təşkil olunub. Tədbir zamanı tikinti sahəsində standartların tətbiqi, sertifikatlaşdırma prosesi, standartlara dair təlimlərin keçirilməsi və digər mövzular müzakirə olundu. ATMİA üzvlərinin təklifləri qeyd edildi və suallarına cavab verildi. İştirakçılar tədbirdən məmnun qalaraq, bu növ görüşlərin davamlı şəkildə həyata keçirilməsinə qərar verdilər.





**Hörmətli ATMİA üzvləri!**

Qırğızıstanın İssık-Kul vilayətinin Ak-Suu rayonunda “Ala-Too Resort” kurort zonasının tikintisi üçün torpaq sahələri satışa çıxarılıb. Maraqlı sahibkarlar hərracla bağlı məlumatı aşağıdakı keçidlərdən əldə edə bilərlər:
alatooresort.kg
auctionetp.gov.kg

**Hörmətli ATMİA üzvləri!**

ITA – İtalyan Ticarət Agentliyi nümayəndəliyindən daxil olan məlumatı nəzərinizə çatdırmaq istərdik.
Daş, mərmər və tikinti materiallarının bərpasında innovasiyalar təqdim edən İtaliyanın KEMISTONE SRL şirkəti əməkdaşlığa dəvət edir! KEMISTONE SRL — təbii daşların təmizlənməsi, qorunması, tonlanması və konsolidasiyası üçün geniş məhsul çeşidinə malikdir. Tikinti şirkətləri, interyer dizaynerlər, memarlar, mərmər və daş materiallarla çalışan mütəxəssislər üçün verilən məlumat maraqlıdırsa, ATMİA ilə əlaqə saxlaya bilərlər: 010 250 03 24.

ITALIAN TRADE AGENCY

# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: ZAK WORLD OF FAÇADES - INDONESIA 2025**
**Tarixlər: 14 avqust 2025-ci il,**
**Məkan: The Ritz-Carlton, Cakarta, (İndoneziya)**
Zak World of Fasades fasad dizaynı və mühəndisliyi üzrə beynəlxalq konfrans seriyasıdır.

**Sərginin adı: CONCRETE SHOW SOUTH AMERICA 2025**
**Tarixlər: 19 - 21 avqust 2025-ci il,**
**Məkan: São Paulo Expo Sərgi və Konqres Mərkəzi, San Paulo (Braziliya)**
Beton Texnologiyası üzrə Sərgi və Konfrans. Concrete Show SA Beton, Əlavələr, hidroizolyasiya, mastiklər, aksesuarlar və alətlər, tikinti, infrastruktur və beton istehsal zənciri üçün yüngül və ağır avadanlıq istehsalçılarını nümayiş etdirir.

**Sərginin adı: BIO-BASED BUILDING MATERIALS 2025**
**Tarixlər: 20-21 avqust 2025-ci il,**
**Məkan: Forumu Kopenhagen, Kopenhagen (Danimarka)**
Bio-əsaslı tikinti materialları üzrə konfrans. Davamlı tikinti materiallarının xüsusiyyətlərindən danışarkən, nəzərə almalı olduğumuz bir çox amil var: Təkrar emalın miqdarını necə artırırıq? Hansı materiallar $CO_2$ emissiyasını azaldır? və s.

**Sərginin adı: LGGB (LANDSCAPE EXPO ASIA) 2025**
**Tarixlər: 21 - 23 avqust 2025-ci il,**
**Məkan: Çin İdxal və İxrac Sərgi Kompleksi B sahəsi, Quançjou (Çin)**
Asiya Landşaft Dizaynı; Avadanlıq və Təchizat Sərgisi.

**Bu ərazilərdə yerləşən köçkün evləri təmir ediləcək - TENDER KEÇİRİLİR.**

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Mənzil İstismar Departamenti açıq tender elan edir.

Elanda Bakı şəhəri və İmişli rayonunda salınmış məcburi köçkün qəsəbələrində yerləşən mənzillərin və fərdi yaşayış evlərinin təmiri xidmətinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Fariz Abbasov, Sektor müdiri
Email: fariz.abbasov@idp.gov.az
Əlaqə telefonnu: +994 12 430 15 30



**RADİO TELEVİZİYA YAYIMI VƏ PEYK RABİTƏSİ İSTEHSALAT BİRLİYİ TENDER ELAN EDİR.**

Radio Televiziya Yayımı Və Peyk Rabitəsi İstehsalat Birliyi açıq tender elan edir.
Elanda "Radio-Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyinin Qarabağ layihəsində 9 ədəd qüllənin təmiri və boyanması üçün lazım olan mal-materialların satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Selcan Niyazi, Dövlət satınalmaları üzrə mütəxəssis
Email: satınalma@teleradio.az
Əlaqə telefonnu:+994 12 498 80 66



**"ƏSASLI TİKİNTİ VƏ TƏCHİZAT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER KEÇİRİR.**

"ƏSASLI TİKİNTİ VƏ TƏCHİZAT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ tender keçirir.
Elanda Hökümət Evinin binasının müxtəlif mərtəbələrində yerləşən Mədəniyyət Nazirliyinin otaqlarının cari təmir işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elmir Murquzov, Satınalma mütəxəssisi
Email: tender@culture.gov.az
Əlaqə telefonu: +994 12 565 01 47 (448)



**"ŞAHDAĞ TURİZM MƏRKƏZİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ TENDER ELAN EDİR.**

"Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyəti tender elan edir.
Elanda Təmir-tikinti materiallarının satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Tamerlan Aydəmir, Satınalma şöbəsinin baş mütəxəssisi
Email: tamerlan.aydemir@shahdag.az
Əlaqə telefonu: +994 77 244 55 13



## ƏDLİYYƏ NAZİRLİYİNİN PENTENSİAR XİDMƏTİ TENDER KEÇİRİR.

Ədliyyə Nazirliyinin Pentensiar Xidməti açıq tender elan edir.
Elanda Carı təmir işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Turxan, satınalmara nəzarət
Email: satinalma@penitensiar.justice.gov.az
Əlaqə telefonnu: +994 51 235 00 39



**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ AKADEMİK Y.H.MƏMMƏDƏLİYEV ADINA NEFT-KİMYA PROSESLƏRİ İNSTİTUTU TENDER ELAN EDİR.**

Azərbaycan Milli Elmlər Akademiyasının Akademik Y.H.Məmmədəliyev Adına Neft-kimya Prosesləri İnstitutu açıq tender elan edir.
Elanda İnstitutun 1 - ci korpusunun 2 - ci mərtəbəsində muzeyin və tədris təcrübə laboratoriyasının əsaslı təmirinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Paşayeva Mehriban, Baş mühasib
Email : xezerm@mail.ru
Əlaqə telefonnu: +994 12 490 13 29





**www.atmia.az**